# YAP Səbail rayon təşkilatının bu ilki iş planı təsdiqlənib



**Yanvarın 22-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib. İclasda YAP Səbail rayon təşkilatının 2019-cu il üçün iş planı və gündəlikdə duran cari məsələlər müzakirə edilib.**

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev iclasda çıxış edərək Azərbaycan Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi ilə həyata keçirilən qətiyyətli dövlət siyasəti nəticəsində əldə olunan uğurlardan danışıb. Qeyd edib ki, bu nailiyyətlər təşkilatın üzvlərini 2019-cu ildə də səmərəli fəaliyyət göstərməyə ruhlandırır.

2019-cu ildə ölkəmizin, o cümlədən YAP-ın həyatı üçün mühüm tədbirlərlə zəngin olacağını vurğulayan Ş.Hacıyev qeyd edib ki, partiyanın qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyi, bələdiyyə seçkiləri, "Nəsimi İli" çərçivəsində böyük Azərbaycan şairinin həyat və yaradıcılığına həsr olunan silsilə tədbirlər hər bir üzvdən yüksək fəallıq tələb edir. Bu istiqamətdə səmərəli fəaliyyət göstərmək üçün YAP Səbail rayon təşkilatının 2019-cu il üçün iş planı yüksək dəqiqliklə hazırlanıb. Partiyanın, o cümlədən təşkilatın hər bir üzvü bütün bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirməlidir.

İclasda YAP Səbail rayon təşkilatının, onun Qadınlar Şurasının, gənclər təşkilatının və nəzarət-təftiş komissiyasının illik iş planları müzakirə olunub, rəy və təkliflər dinlənilib.

İdarə heyətinin üzvləri çıxışlarında iş planlarının geniş, əhatəli və yüksək dəqiqliklə hazırlandığını bildiriblər.

Çıxışlardan sonra iş planları səsə qoyularaq təsdiqlənib.

İclasda, həmçinin yeni təsis edilən ərazi ilk partiya təşkilatlarından daxil olan müraciətlərə baxılıb, "Nərgiz Mall" Ticarət Mərkəzi "Fəvvarələr" ərazi ilk partiya təşkilatının müraciətinə baxılaraq qeydiyyata alınması barədə qərar qəbul olunub.

Sonra cari məsələlər və qarşıda duran vəzifələr müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

## Qanunsuz aksiyaya cəhdlə bağlı mitinq təşkilatçılarına xəbərdarlıq

Xəbər verildiyi kimi, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran quruma daxil olan partiya və birliklər bu il yanvarın 19-da saat 15.00-dan 17.00-dək Yasamal rayonundakı İdman-Sağlamlıq Kompleksinin stadionunda Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinq keçirib.

Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğundan verilən məlumata görə, mitinqdən sonra iştirakçıların bir qrupu Yasamal rayonunun Şərifzadə küçəsində və Bakı Metropoliteninin "İnşaatçılar" stansiyasının yaxınlığında "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə zidd olaraq razılaşdırılmış vaxtdan və ərazidən kənar, habelə yetkinlik yaşına çatmayanlar da cəlb edilməklə qanunsuz küçə yürüşünə cəhd ediblər.

Bu zaman ətrafdakıların diqqətini cəlb etmək və əhali arasında qorxu, vahimə yaratmaq, vətəndaşlara qarşı kobudluq, istirahət hüquqlarının pozulması kimi qanunazidd hərəkətlərə yol verib, ərazidə xidmətdə olan polis əməkdaşlarına qarşı tabesizlik göstəriblər.

Qeyd edilənlərlə əlaqədar 19 yanvar mitinqinin təşkilatçıları yanvarın 22-də Bakı Şəhər Baş Polis İdarəsinə dəvət edilərək ictimai qaydanı pozmaqda və hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olmamaqda ifadə olunan, əhalinin rahatlığını, müəssisə, idarə və təşkilatların normal fəaliyyətini və nəqliyyatın işini pozan qanunsuz hərəkətlərinin gələcəkdə təkrarlanacağı təqdirdə belə qanunsuz aksiyanın təşkilatçıları və iştirakçıları cinayət məsuliyyəti də daxil olmaqla, barələrində qanunvericilikdə nəzərdə tutulmuş ən ciddi tədbirlərin görüləcəyinə dair rəsmi şəkildə xəbərdar ediliblər.

## *Çavuşoğlu:* Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Qafqazda sabitlik mümkün deyil



Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Qafqazda sabitlik mümkün deyil.

Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Antalyada tələbələrlə görüşündə deyib.

Qafqazdakı vəziyyətə toxunan nazir bildirib ki, Dağlıq Qarabağ münaqişəsi regionun sabitliyi üçün təhdiddir: "Qarabağ münaqişəsi nizamlanmadan Qafqazda sabitlik mümkün deyil. Həmçinin bizim üçün Ermənistanla münasibətlərin tənzimlənməsi də mümkün deyil. Biz 2019-cu ildə də bu məsələ ilə bağlı davamlı iş görəcəyik".

M.Çavuşoğlu vurğulayıb ki, erməni lobbisi dünyada Türkiyə əleyhinə aktiv fəaliyyət göstərməyə davam edir.

*Norika Nikolai:*

## Avropa Parlamentinin bəzi deputatları tərəfindən səsləndirilən bəyanatlar saxtadır



Avropa Parlamentində Azərbaycan üzrə məruzəçi, rumıniyalı deputat Norika Nikolai Azərbaycanla bağlı bəyanat yayıb. Bəyanat Avropa Parlamentinin bütün üzvlərinə, onun rəhbərliyinə və Avropa İttifaqının əlaqədar qurumlarına göndərilib.

Deputat bəyanatda deyir: "Mehman Hüseynovla bağlı cinayət işinə xitam verilməsinə dair Azərbaycan hakimiyyətinin qərarını alqışlayıram. Bu, onu göstərir ki, Avropa Parlamentinin bəzi deputatları tərəfindən səsləndirilən bəyanatlar saxtadır. Ümid edirəm ki, onlar gələcəkdə hər hansı bir bəyanat verməmişdən əvvəl insident barədə məlumatı etibarlı mənbələrdən əldə edəcəklər".

## MONTENEQRO AZƏRBAYCANDA DİPLOMATİK MİSSİYA AÇMAQ İSTƏYİR



Xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Monteneqro Xarici İşlər Nazirliyinin baş katibi Veselin Şukoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazirlikdən verilən məlumata görə, görüşdə Azərbaycanla Monteneqro arasında dostluq münasibətlərinin inkişafından məmnunluq ifadə edilib, yüksək səviyyəli səfərlərin ikitərəfli əməkdaşlığa mühüm töhfə verdiyi vurğulanıb.

Tərəflər iki ölkə arasında enerji, nəqliyyat, investisiya, turizm və digər sahələrdə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Qarşılıqlı sərmayə yatırımını təşviq etmək və iki ölkə arasında ticarət dövriyyəsini artırmaq məqsədilə biznes forumların keçirilməsinin vacibliyi vurğulanıb. Nazir E.Məmmədyarov qonağa Cənub Qaz Dəhlizinin inkişafı, TANAP və TAP layihələri haqqında məlumat verdi və bu əsnada Monteneqro ilə əməkdaşlıq məsələlərini diqqətə çəkib.

Nazir E.Məmmədyarov Monteneqronun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın ədalətli mövqeyinə verdiyi qəti dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb. O, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin hazırkı mərhələsi barədə qarşı tərəfi məlumatlandırıb.

V.Şukoviç ikitərəfli münasibətlərin inkişafında yeni mərhələyə qədəm qoyulduğunu ifadə edərək, Monteneqronun Azərbaycanda öz diplomatik missiyasını açmaq niyyətini əks etdirən notanı Azərbaycan tərəfinə təqdim etdiyini bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq kəsb edən regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## MÜBARİZ QURBANLI ŞİMAL BÖLGƏSİNDƏ SAKİNLƏRİN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı yanvarın 22-də Siyəzən şəhərində şimal bölgəsindən olan sakinlərin müraciətlərini dinləyib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarının sakinləri iştirak edib.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi və digər məsələlərlə bağlı müraciət ünvanlayıblar.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara isə müvafiq qurumlara müraciət etmələri tövsiyə olunub.

## ABADLAŞAN KƏND YOLLARI



Dağlar diyarı Lerik rayonunda abadlıq işləri bu qış günlərində də səngimir. Əsasən sıldırımlı qayalardan keçən, rayonun ucqar yaşayış məntəqələrinə uzanan yolların təmirinə, yenilərin açılışına xüsusi əhəmiyyət verilir.

Hazırda burada dövlətin vəsaiti hesabına bir neçə istiqamətdə yol inşaatı davam edir. Müasir üslubda çəkilən geniş, yaraşıqlı yollar öz rahatlığı ilə seçilir, həm də dağlar diyarının iqtisadi inkişafına, insanların sosial rifahının yüksəlməsinə yaxşı təkan verir. Rayonda belə yollardan biri də zirvəsi qartallı, dərələri bənövşə qoxulu Bradi və Dızdipok kəndlərini birləşdirir.

Yenidən qurulan bu həyat arteriyası hər iki kəndin əhalisini razı salır. Burada gediş-gəliş əvvəlki illərə nisbətən çox yaxşılaşıb. Adamlar mənzil başına vaxtında çatırlar.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü